# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Budapeştdə Atletika üzrə Dünya Çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalını izləyiblər





**Avqustun 20-də Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində Atletika üzrə Dünya Çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalı keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə finalı izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç də yarışa baxıblar.

Atletika üzrə Dünya Çempionatı ilk dəfədir Budapeştdə keçirilir. Macarıstanın evsahibliyi etdiyi ən böyük idman yarışı olan Atletika üzrə Dünya Çempionatı avqustun 19-da start götürüb. Avqustun 27-dək davam edəcək bu mötəbər turnirdə 200-dən çox ölkədən 2000-dən artıq idmançı atletikanın 49 növü üzrə mübarizə aparır. Azərbaycanı dünya çempionatında iki idmançı təmsil edir.

Azərbaycan. - 2023.- 22 avqust.- S.3.